

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 119 (21.529)

30 iyun 2016-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Tələbə Qəbulu üzrə Regional Bölmənin binası istifadəyə verilmişdir







İyunun 29-da Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin inzibati binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Tədbirdə Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin direktoru Sabir Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də mühüm tədbirlər görülür, müasir təhsil infrastrukturu yaradılır. Bunun nəticəsində orta məktəblərdə tədrisin səviyyəsi yaxşılaşmış, hər il ali və orta ixtisas məktəblərinə qəbul sayında artım olmuşdur. Muxtar respublikada sənəd qəbulu və qəbul imtahanlarının keçirilməsindəki çətinliklər də aradan qaldırılmış, regional bölmədə imtahanların keçirilməsi üçün təcrübə və baza formalaşmışdır. Bölmənin inzibati binasının yenidən qurularaq istifadəyə verilməsi fəaliyyətin bundan sonra daha səmərəli təşkilinə imkan verəcəkdir. Sabir Məmmədov yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin inzibati binasının yenidənqurmadan sonra istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Muxtar respublika üçün vacib təşkilatlardan olan Tələbə Qəbulu üzrə Regional Bölmə 2009-cu ildən fəaliyyət göstərir. Ötən dövrdə bölmə inkişaf edərək fəaliyyət dairəsini xeyli genişləndirmişdir. Bu gün regional bölmə muxtar respublikada təhsilin bütün pillələri üzrə qəbul imtahanları keçirir. İl ərzində bölmə tərəfindən keçirilən qəbul imtahanlarında 20 mindən çox şagird, abituriyent və bakalavr iştirak edir. Muxtar respublika üzrə 650 nəzarətçi müəllim, 60 imtahan rəhbəri bölmədə fəaliyyət göstərir. Həmçinin bölmədə keçirilən monitorinq imtahanlarının nəticələrini yoxlamaq üçün 80 müəllimdən ibarət ekspertlər bazası yaradılmışdır. Bütün bunlar nəzərə alınaraq bölmənin inzibati binasında yenidənqurma işləri aparılmış, müasir iş şəraiti yaradılmışdır.

Ali Məclisin Sədri uğurlu fəaliyyətinə görə bölmənin kollektivinə təşəkkür edərək demişdir: Tələbə Qəbulu üzrə Regional Bölmənin qarşısında mühüm vəzifələr durur. Bölmə fəaliyyətini daha da genişləndirməli, nəzarətçi və imtahan rəhbəri olan müəllimlərlə iş düzgün qurulmalıdır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birlikdə ana dili və riyaziyyat fənləri üzrə monitorinqlər aparılmalı, muxtar respublikanın ümumtəhsil məktəbləri müəllimlərinin sınaq-test imtahanları üzrə sualların hazırlanmasında iştirakı təmin edilməli, dərsliklər üzrə təkliflər hazırlanmalıdır.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, bu işlərin həyata keçirilməsində kollektivə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, əsaslı şəkildə yenidən qurulan binaya bir mərtəbə də əlavə olunmuşdur. 3 mərtəbəli binada sənədlərin qəbulu, seminar, sual kitabçalarının ekspertizası və iclas zalları, arxiv və iş otaqları yerləşir. Binada qeydiyyat üçün elektron köşk qoyulmuş, 12 kompüter quraşdırılmış və internetə qoşulmuşdur. Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən dərsliklərin və dərs vəsaitlərinin monitorinqi aparılarkən internet üzərindən birbaşa əlaqə yaradılır və ixtisas müəllimlərinin müzakirələrdə iştirakı təmin edilir.

Binanın həyəti də abadlaşdırılmış, yeni işıqlandırma sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetində 2016-cı ilin iyun ayında bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir.

"Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Elektron xidmət növlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 8 dekabr tarixli 103 nömrəli qərarında dəyişikliklər edilməsi barədə" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 iyun tarixli qərarı təsdiq edilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli qərarı ilə "Uşaq musiqi, incəsənət və rəssamlıq məktəblərində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları" təsdiq edilmişdir.

Qaydalara əsasən təhsil müəssisələrini bitirən məzunlara təhsil haqqında dövlət sənədləri verilir. Təhsil haqqında dövlət sənədləri növbəti pillədə və ya səviyyədə təhsili davam etdirmək, yaxud əmək fəaliyyətinə başlamaq üçün əsas sayılır və təhsil müəssisələrini xüsusi nailiyyətlərlə başa vuran məzunlara xüsusi nümunəli şəhadətnamə, digər hallarda isə adi şəhadətnamə verilir.

Qəbul edilmiş normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Naxçıvan Biznes Mərkəzində maarifləndirici tədbir keçirilib

*Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti və İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə tədbir keçirilib.*

Muxtar respublikada fəaliyyət göstərən sahibkarların iştirakı ilə keçirilən tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti rəisinin müavini Elnur Məmmədov açıb. Bildirilib ki, muxtar respublika iqtisadiyyatının inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması daxili əmək bazarında əcnəbi işçi miqrantlarının sayının artmasına gətirib çıxarıb. Burada bir-birindən fərqli səbəblər olsa da, ümumilikdə, belə nəticəyə gəlmək olar ki, böyüyən və şaxələnən iqtisadiyyatın əmək ehtiyatlarına artan tələbatı mövcuddur və bu prosesin tənzimlənməsi və ya idarə olunması mexanizmi aktual məsələdir.

Elnur Məmmədov muxtar respublikada miqrasiya proseslərinin tənzimlənməsi, qanunsuz əmək miqrasiyasının qarşısının alınması istiqamətində görülən işlərdən də danışıb, sahibkarların yerli mütəxəssislərə üstünlük verməsinin əhəmiyyətini vurğulayıb, yerli əmək ehtiyatları hesabına ödənilə bilməyən boş iş yerlərinin əcnəbi işçi qüvvəsi hesabına ödənilməsinin qaydaları barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyat nazirinin müavini Anar Əhmədov çıxışında qeyd edib ki, son illər muxtar respublikada əmək bazarının tənzimlənməsi sahəsində bir sıra tədbirlər həyata keçirilib. Daxili əmək bazarının tələbatına uyğun olaraq, ali və orta ixtisas məktəblərində yeni ixtisasların açılması diqqət mərkəzində saxlanılıb, peşə məktəbləri yaradılıb. Əmək miqrasiyasının kvotalarının müəyyən edilməsi və proqnozlaşdırılması təmin edilib, özəl sektor nümayəndələrinin menecment biliklərinin artırılması məqsədilə onlar xarici ölkələrdə müxtəlif ixtisasartırma kurslarına cəlb edilib, sahibkarlıq subyektlərinin təmsilçiləri çoxsaylı treninqlərdə iştirak edib.



Yeni müəssisələrin və iş yerlərinin açılması prosesinə xarici investisiyaların cəlb edilməsi diqqət mərkəzində saxlanılıb. Yaradılmış münbit biznes mühiti nəticəsində 1 yanvar 2016-cı il tarixə olan məlumata əsasən, muxtar respublikada xarici və birgə investisiyalı sahibkarlıq subyektlərinin sayı 77 hüquqi və 12 fiziki şəxs olmaqla, ümumilikdə, 89-a çatıb. Muxtar respublikada xarici və birgə investisiyalı müəssisələrin fəaliyyət istiqamətləri, əsasən, inşaat, pərakəndə və topdansatış ticarət, maliyyə-kredit, dağ-mədən və nəşriyyat fəaliyyəti, iaşə xidməti, istehsalat, sərnişin və yükdaşıma kimi sahələri əhatə edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin şöbə müdiri Mircavid Tağızadə "Sahibkarlıq subyektlərinin əcnəbi işçi qüvvəsinə olan tələbatı nəzərə alınaraq bu sahələrin yerli işçi qüvvəsi hesabına təmin edilməsi", Dövlət Miqrasiya Xidmətinin inspektoru Samir Sadiqov "Yerli əmək ehtiyatları hesabına ödənilə bilməyən boş iş yerlərinin əcnəbi işçi qüvvəsi hesabına ödənilməsinin qaydaları və şərtləri", Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşı Vüsal Süleymanlı "Muxtar respublikada məşğulluğun artırılması ilə bağlı dövlət proqramının icrası ilə əlaqədar yerli əmək ehtiyatlarından səmərəli istifadə" mövzularında çıxışlar ediblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## İqtisadiyyat





# Taxıl istehsalçılarının alıcı problemi yoxdur

## “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti bu mövsümdə də məhsulu yüksək qiymətə qəbul edir



***Muxtar respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılır, bu sahənin inkişafı üçün ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir. Taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulması zərurətini yaratmışdı. Son illər “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib.***

Uzunmüddətli taxıl anbarı hər biri 3 min ton tutumu olan 9 bunkerdən ibarətdir ki, burada yüksək texniki göstəricilərə malik müasir texnoloji avadanlıqlar quraşdırılıb. Həmçinin burada işçilərə normal iş şəraiti yaradılıb, 8 iş otağı, yeməkxana, laboratoriya və digər yardımçı otaqlardan ibarət inzibati bina tikilib istifadəyə verilib. Müəssisə strateji əhəmiyyət daşıdığından burada ildırımötürücü qurğu və yanğından mühafizə sistemi quraşdırılıb. Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, torpaq mülkiyyətçilərinin istehsal etdiyi taxılın alıcı sarıdan heç bir problemi yoxdur. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən alınır. Bu, taxılçılığa olan marağın daha da artmasına səbəb olur. Taxıl ehtiyatı anbarında mövsümə hazırlıqla əlaqədar kompleks tədbirlər görülüb, havalandırma sistemində, ayrı-ayrı anbarlarda cari təmir işləri aparılıb, avadanlıqlar yağlanıb, rəqəmsal tərəzi mütəxəssislər tərəfindən yoxlanılıb, laboratoriyaya baxış keçirilib.

Muxtar respublikada strateji əhəmiyyətli məhsula olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verib, 2016-cı ilin məhsulu üçün 31 min 579 hektar sahədə bol məhsul yetişdirilib. Ayrı-ayrı rayonlardan gətirilən sarı kəhrəba “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində laborator analizdən keçirildikdən sonra 60 tonluq rəqəmsal tərəzidə çəkilərək qəbul olunur. Toxumluq və istehsal üçün nəzərdə tutulan taxıl təyinatı üzrə ayrı-ayrı anbarlara təhvil verilir. Taxılçılıqla məşğul olan sahibkarlardan Xaləddin Zeynalov, Rafiq Əliyev, Ramiz Şükürov, Zürab Mehdiyev bizimlə söhbətdə qeyd etdilər ki, təsərrüfat suyuna olan tələbat vaxtında ödənilir, torpaq mülkiyyətçilərinə güzəştli şərtlərlə kreditlər və lizinq yolu ilə



müasir kənd təsərrüfatı texnikaları verilir, “Naxçıvan Aqrolizinq” ASC-nin rayon bazalarında aqrotexniki xidmət sarıdan köməkliklər göstərilir. Həmçinin kənd təsərrüfatı məhsulları istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə dövlət tərəfindən ötən ildən hər hektar buğda sahəsi üçün 100 manat, arpa əkini sahəsi üçün 50 manat ödənilir, mineral gübrələr isə 70 faiz güzəştlə verilir. Həmçinin ötən ildən lizinqin şərtlərinə dəyişiklik edilib, alınan kənd təsərrüfatı texnikalarının ümumi dəyərinin 40 faiz həcmində güzəşt tətbiq olunub ki, bu da hər bir torpaq mülkiyyətçisinin ailə büdcəsinə müsbət təsir göstərib, onun əkib-becərmək əzmini daha da artırıb.

Taxılın əkilib-becərilməsi ilə yanaşı, məhsulun vaxtında toplanılmasına və münasib qiymətə “Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətinə təhvil verilməsinə də əlverişli şərait yaradılıb. Sahibkarlar yaradılan şəraitə, göstərilən qayğıya görə dövlətimizə minnətdardırlar.

Strateji əhəmiyyətli məhsulun tədarük olunub yüksək keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir. Hazırda Naxçıvan şəhərində “Bərəkət” Toxumçuluq Təsərrüfatı üçün yeni kompleks inşa olunur. Ərazidə texnikaların saxlanılması üçün qaraj və anbar binaları inşa edilib. Burada toxum, qüvvəli yem və xammal anbarları istifadəyə veriləcəkdir. Əvvəllər dəyirman kimi istifadə olunan bu ərazidə hər birinin tutumu 500 ton olan 48 bunker vardır. Təmir işlərindən sonra bunkerlər toxumun keyfiyyətlə və uzun müddətə saxlanılmasına imkan verəcəkdir.

Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər kənd təsərrüfatı bitkiləri toxumunun satışı da həyata keçiriləcəkdir.

# Kəngərli rayonunda bu il də bol məhsul yetişdirilib

***Kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən kompleks tədbirlər Kəngərli rayonunda da uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında” 2007-ci il 23 yanvar tarixli Sərəncamı muxtar respublikamızın hər bir bölgəsində olduğu kimi, Kəngərli rayonunda da əkinçiliyin inkişafına stimul verib. Ölkə başçısının 16 aprel 2014-cü il tarixli Fərmanına uyğun olaraq, kənd təsərrüfatının inkişafının stimullaşdırılması məqsədilə ötən ildən lizinqə götürülən kənd təsərrüfatı texnikalarının ilkin dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsinin vəsaiti hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq olunub. Gətirilən gübrələrin 70 faiz güzəştlə satışı təmin olunub ki, bu da torpaq mülkiyyətçilərinin əkib-becərmək əzmini daha da artırıb.***

Əkinçiliyin inkişafına təsir edən mühüm amillərdən biri – suvarma suyuna olan tələbatın ödənilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Son illər əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə qatılması, əkin sahələrinin suvarma suyu ilə təminatının daha da yaxşılaşdırılması üçün həyata keçirilən meliorasiya-irriqasiya tədbirləri öz bəhrəsini verib. Kəngərli rayonunun Xok kəndi ərazisində 200 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsi bərpa edilib. Uzunoba Su Anbarından qoşa boru xətti çəkilib, yeni nasos stansiyası tikilib istifadəyə verilib. Bunun nəticəsində Yeni Kərki, Xıncab, Təzəkənd və Böyükdüz kəndlərinin ərazisində, ümumilikdə, 5800 hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilib. Böyükdüz kəndi ərazisindəki 400 hektar qapalı suvarma və kollektor drenaj şəbəkəsi bərpa olunub. Həmçinin rayon ərazisində yerləşən ümumi tutumu 2 milyon 100 min kubmetr olan “Xok-1”, “Xok-2”, “Çalxanqala”, “Qarabağlar”, “Yurdçu” göllərində kifayət qədər su ehtiyatı yaradılıb. Rayonun Təzəkənd, Yurdçu, Xıncab, Xok kəndlərində olan “Ağsu”, “Qasımbəy”, “Mirzəlilər-2” və “Çay” kəhrizlərindən də səmərəli istifadə olunur. Öz axarı ilə suvarılması mümkün olmayan əkin və həyətyanı torpaq sahələri isə rayonda fəaliyyət göstərən “Qıvraq-1”, “Qıvraq-2”, “Azərbaycan”, “Şahtaxtı”, “Qarabağlar” nasos stansiyaları və 53 subartezian quyusu vasitəsilə suvarılır. Suvarma suyuna olan tələbatın vaxtlı-vaxtında ödənilməsi üçün nasos stansiyaları və subartezian quyuları lazımi ehtiyat hissələri ilə təmin olunub, nasos stansiyalarında, subartezian quyularında cari təmir işləri aparılıb. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün suvarma suyuna olan tələbatın ödənilməsində heç bir problem yoxdur.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı məhsulları istehsalını yüksəltmək, əhalini keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək, ərzaq təminatı sahəsində uğurları artırmaq üçün mövcud imkanlardan səmərəli istifadə edilir. Muxtar respublikamızın strateji əhəmiyyətli məhsula – taxıla olan tələbatının daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən tədbirlər Kəngərli rayonunda da öz bəhrəsini verib, ötən ilin payızı və bu ilin yazında torpaq mülkiyyətçiləri məhsuldar toxum sortlarına üstünlük verməklə 3965 hektar sahədə bol məhsul yetişdirməyə müvəffəq olublar. Son illər əkin-biçin kampaniyasının mütəşəkkil keçirilməsi və optimal müddətdə başa çatdırılması üçün kompleks tədbirlər həyata keçirilib. “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Kəngərli rayon bazasının istifadəyə verilməsi müasir texnika və texnoloji avadanlıqların, mineral gübrələrin saxlanılmasına və çatdırılmasına, yüksəkkeyfiyyətli aqroservis xidməti göstərilməsinə əlverişli şərait yaradıb. Cari ildə də bu istiqamətdə işlər uğurla davam etdirilib, kənd təsərrüfatı texnikaları hazır vəziyyətə gətirilərək sahələrə çıxarılıb. Artıq rayonun ayrı-ayrı yaşayış məntəqələrində, ümumilikdə, 1000 hektardan çox sarı kəhrəba zəmisində biçin başa çatdırılıb, hektarda məhsuldarlıq 28,7 sentner olub. Taxıl biçini davam edir.



Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı da mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb, cari ilin yaz mövsümündə yeni meyvə bağları salınıb, ərik, şaftalı, gilənar və badam tingləri əkilib. Ümumilikdə, rayonda mövcud 698 hektar meyvə bağlarına aqrotexniki qulluq göstərilir ki, bunun da 584 hektarı barverəndir. Daxili bazarın yerli tərəvəz məhsulları ilə təmin olunması da diqqət mərkəzindədir. 181 hektar sahədə bostan, 298 hektar sahədə tərəvəz əkini keçirilib.

Rayonda kartofçuluğa da maraq xeyli artıb. Sahibkarlara güzəştli şərtlərlə kredit və avadanlıqların verilməsi cari ildə də davam etdirilib. “Naxçıvan Aqrolizinq” ASC-nin Kəngərli rayon bazasındakı kartofəkən və kartofçıxaran texnikalardan səmərəli istifadə olunaraq 216 hektar sahədə kartof əkini aparılıb. Rayonda kənd təsərrüfatının digər sahələri də artım sürəti ilə diqqəti çəkir. Belə ki, rayon ərazisində, ümumilikdə, 137 hektar sahədə noxud, 186 hektar sahədə lobya, 70 hektar sahədə birillik (şənbəllə), əvvəlki illərlə birlikdə 1358 hektar sahədə çoxillik ot, 140 hektar sahədə qarğıdalı, 114 hektar sahədə günəbaxan əkini keçirilib.

**✍ Kərəm HƏSƏNOV**

## Şahbuzda kartofçuluğun inkişafı diqqət mərkəzindədir

Muxtar respublikanın sürətlə inkişaf edən bölgələrindən biri kimi Şahbuz rayonunda da son illərdə həyatın bütün sahələrində əsl canlanma yaranıb, əhalinin güzəranı xeyli yaxşılaşıb, iqtisadiyyatın bütün sahələrində irəliləyişlərə nail olunub, aqrar sahədə infrastrukturun yaxşılaşdırılması, texniki bazanın möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilib. Aqrar bölmədə fəallığın artması nəticəsində taxılçılıq, meyvəçilik, üzümçülük, heyvandarlıq və inkişafına xüsusi önəm verilən kartofçuluqda uğurlar qazanılıb.



Şahbuz Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, rayonda mart ayından başlayaraq kartof əkininə start verilib. Ötən il sahələrdən bol məhsul götürülməsi bu il kartof əkininə olan marağı daha da artırıb. Bunun nəticəsidir ki, bu il torpaq mülkiyyətçiləri 340 hektar həyətyanı, 44 hektar pay torpaq sahələrində kartof əkinləri həyata keçiriblər. Rayonun Kükü, Keçili, Gömür, Aşağı Qışlaq, Yuxarı Qışlaq, Nursu kəndləri kartof əkinlərinin geniş miqyasda həyata keçirildiyi yaşayış məntəqələridir. Kartofçuluqla məşğul olan torpaq mülkiyyətçilərindən Ağbulaq kənd sakini Faiq Cəfərov, Yuxarı Qışlaq kəndindən İntiqam Quliyev, Nursu kəndindən İlqar Rüstəmov, Keçili kəndindən Elçin Quliyev və başqaları ilə söhbət zamanı bildirdilər ki, heç bir çətinlikləri yoxdur, lazımi texnikalarla təmin olunublar. Elə bunun nəticəsidir ki, kartofçuluğa maraq ilbəil artır.

Xatırladaq ki, ötən il rayonda 462 hektar sahədə kartof əkini həyata keçirilib, 8 min 46 ton məhsul əldə edilib, hər hektarın məhsuldarlığı 174,2 sentner olub.

**✍ Səbuhi HÜSEYNOV**

## Babək rayonunda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil edilib

*İyunun 29-da Babək Rayon Mədəniyyət Evində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın açılışı olub.*



Sərginin açılış mərasimində Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxış edərək bildirib ki, muxtar respublikamızda qadınların ictimai-siyasi sahədə fəal iştirakına geniş imkanlar yaradılır, qadın əməyi yüksək qiymətləndirilir. Babək rayonunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələrində çalışan qadınlarımız öz bilik və bacarıqları, işgüzarlıqları və ictimai-siyasi həyatdakı fəaliyyətləri ilə hər zaman seçilirlər. Həyata keçirilən dövlət-qadın siyasətinin tərkib hissəsi olaraq istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsinə xüsusi diqqət yetirilir. Qadınların əl işlərindən ibarət sərgilərin təşkil olunması da bu tədbirlərin davamı kimi mühüm əhəmiyyət daşıyır. Bundan sonra da istedadlı qadınların əl işlərinin sərgi-satışı davam etdiriləcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək deyib ki, cari ildə muxtar respublikanın bütün rayon mərkəzlərində bu səpkidə sərgilərin keçirilməsi nəzərdə tutulub. Bu gün Babək rayonunda yaşayan istedadlı qadınların rəsm və əl işlərindən ibarət sərgi-satışın təşkil edilməsində məqsəd rayon üzrə qadınlarımızın istedad və bacarıqlarını üzə çıxarmaq, milli dəyərlərimizi, adət-ənənələrimizi gənclərə aşılamaq, yüz illərdir, ailələrimizdə qorunub saxlanılan mənəvi irsimizi, zəngin dəyərə malik olan həyat tərzimizi ilmələrə, tablolara köçürmək və yaşatmaqdır. Ümumiyyətlə, indiyədək istedadlı qadınların rəsm və əl işlərindən ibarət təşkil olunan sərgi-satışlar xalq tətbiqi sənət növünün və əl işlərinin bənzərsiz nümunələri ilə seçilib. Bunun da səbəbi qadınlarımızın, o cümlədən Babək rayonundan olan qadınlarımızın öz sənət əsərlərində milli dəyərlərə daha çox üstünlük verməsi, vətənpərvərlik cizgilərini daha çox qabartması olub. Çünki dünən bu günə çatmırsa, demək, bu gün də sabaha çatdırılmayacaqdır. Xalqımızın dünəninin bu günə, bu gününün sabaha yetməsi, qovuşması, heç şübhəsiz, milli dəyərlərimizin yaşadılması ilə sıx bağlıdır.

İstedadlı qadınlardan Ulduz Əliyeva çıxış edərək qadınlara göstərilən diqqət və qayğıya görə Babək rayonunun istedadlı qadınları adından minnətdarlıq edib.

Sərgi-satışda rayon üzrə 50 istedadlı qadının 600 rəsm və əl işinin satışı təşkil olunub. Sulu və yağlı boya ilə işlənən tablolarla yanaşı, milli geyimlər, toxuculuq və bir-birindən maraqlı dekorativ-tətbiqi sənət nümunələri maraqla qarşılanıb. İstedadlı qadınlardan Zeynəb Aslan, Şərəbanı Məmmədova, Şəlalə Məmmədova, Pəri Seyidova, Kəmalə Cəfərova və başqaları ilə həmsöhbət olduq. Onlar vurğuladılar ki, Naxçıvan qadınlarının firavan həyatına, ictimai mühitlə geniş əlaqələrinin yaradılmasına doğru yönəldilmiş belə addımlar onların gələcək yaradıcılığı üçün böyük stimuldur.

Qeyd edək ki, sərgi-satış 2 gün davam edəcəkdir.

✍ **Sara ƏZİMOVA**

## Culfa rayonu ərazisində bir neçə yeni arxeoloji abidə aşkar edilib

***Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası zəngin tarixə və mədəniyyətə malikdir. Ərazinin əlverişli təbii-coğrafi mövqeyə malik olması nəticəsində insanlar tarixən bu torpaqlarda məskunlaşaraq öz abidələrini yaratmışlar. Həmin abidələr həm Azərbaycan, həm də dünya arxeologiyasında mühüm yer tutur. Onların dərindən öyrənilməsi nəticəsində qədim tariximizlə bağlı bir sıra problemlərə aydınlıq gətirmək mümkündür. Bu sahədə davamlı tədqiqatlar aparılsa da, hələ də öyrənilməyən abidələrimiz qalmaqdadır.***

Naxçıvan Muxtar Respublikasının ərazisində 2016-cı ildə aparılan tədqiqatlar zamanı Culfa rayonunda bir neçə yeni arxeoloji abidə aşkar edilmişdir. Yeni arxeoloji tapıntılar Şah Abbas sarayından, "Yurd yeri" adlı yaşayış yerindən və qayaüstü təsvirlərdən ibarətdir. Hər iki yaşayış yeri orta əsrlər dövrünə aiddir. Əldə olunmuş yerüstü arxeoloji materiallar orta əsrlər dövrünə aid şirli və şirsiz gil qab qırıqlarından, həmçinin forma verən və forma verməyən hissələrdən ibarətdir. Yaşayış yerlərindəki tikili qalıqları dağıldığından onların yerində daş yığınları və üzərini otlar örtən çalalar qalmaqdadır. Şah Abbas sarayında aparılan tədqiqatlar zamanı məlum oldu ki, burada insanların yaşamasının əsas səbəblərindən biri abidənin yaxınlığında təbii bulağın və onun yerləşdiyi ərazinin əlverişli təbii-coğrafi mövqeyə malik olmasıdır. Abidənin adı ilə bağlı hər hansı bir dəqiq fikir söyləmək bir qədər çətin olsa da, aparılan araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, abidənin bu cür adlanmasının müəyyən məntiqi əsası vardır. Çünki Naxçıvanda Şah Abbasla bağlı xeyli arxeoloji materiallar dövrümüzədək qalmaqdadır. Culfa rayonunun Gülüstan kəndinin qərbində, Araz çayının üzərində salınmış Şah Abbas körpüsünü, Ordubad rayonunun Yuxarı Əylis kəndindəki Şah Abbas məscidini, Ordubad şəhərindəki Came məscidinin giriş hissəsindəki kitabəni və digər faktları buna nümunə göstərmək olar. Naxçıvanın bir çox yerlərində olduğu kimi, aşkar edilmiş yeni abidənin də Səfəvi dövlətinin hökmdarlarından olan Şah Abbasla bağlılıq təşkil etməsi tamamilə məntiqə uyğundur. Çünki Azərbaycanın digər bölgələri kimi, Naxçıvan da bir müddət Səfəvilər dövlətinin tərkibində olmuşdur. Naxçıvanın Səfəvilər dövlətinin tərkibində olması bir çox sahələr kimi, abidələrə də öz təsirini göstərmiş, Səfəvi hökmdarlarının adları ilə bağlı abidələr yaranmışdır.

Qayaüstü təsvirlərlə bağlı aparılan araşdırma zamanı məlum olur ki, bu rəsmlərin mühüm elmi əhəmiyyəti var. Bu rəsmlər Naxçıvanda qayaüstü təsvirlərin yayılma arealının geniş olduğunu, Gəmiqaya abidəsi ilə yanaşı, digər əraziləri də əhatə etdiyini sübuta yetirir. Aşkar edilmiş yeni qayaüstü təsvirlərin hamısı təbii daşların üzərində cızma üsulu ilə, sxematik xarakterdə, mürəkkəb kompozisiyada çəkilmişdir. Ən çox dairəvi və yarımdairəvi rəsmlərdən istifadə olunmuşdur. Bundan başqa, svastika, nöqtələr, sxematik xarakterli işarələrdən də istifadə edilmişdir. Bu işarələr təsadüfən çəkilməmişdir. Onlar insan təfəkkürünün, düşüncə tərzinin məhsulu olub, müəyyən məntiqə əsaslanmışdır. Mənbələrə nəzər salsaq, görərik ki, qayaüstü təsvirdəki hər bir ornamentin geniş semantikası var. Nöqtələrdən ibarət işarələr, svastika, qoşa dairə rəsmləri dünyanın müxtəlif yerlərində (Sibirdə, Qeqam dağlarında və sair) olduğu kimi, Gəmiqayada da qeydə alınmışdır. Gəmiqaya abidəsindəki belə qayaüstü təsvirlərin Tunc dövrünə aid olduğu qeyd edilmişdir. Dairənin ikiyə bölünməsinin sutkanı (gecə və gündüzü) bildirməsi, svastika rəsminin Günəşi simvolizə etməsi, dünyanın dördtərəfli olduğunu göstərməsi ilə bağlı elmdə müxtəlif fikirlər var. Sibir türklərinin mifologiyasına görə, nöqtələrdən ibarət işarələr ulduzları simvolizə etmiş, qoşa dairələr isə Veneranı göstərmişdir. Fikirlər müxtəlif olsa da, onların hamısını birləşdirən ortaq xüsusiyyət bu tip rəsmlərin astral inamla bağlı olmasıdır. Qeydə alınmış yeni qayaüstü təsvirlərdən bir qrupunun mənbələrdə damğa kimi işlədilməsi də öz əksini tapmışdır. Onlar ox ( ⭣ ), bir-birinə birləşən qoşa dairə (ꝏ), rum rəqəminə bənzər (IVI), ucları içəri qatlanmış buynuzşəkilli (ᨓ), uc hissələri xaricə çıxan buynuzşəkilli (Ц), qılıncabənzər (⟋) işarələrdən ibarətdir. Fikrimizi əsaslandırmaq üçün mənbəyə nəzər salsaq, görərik ki, ox ( ⭣ ) işarəsi "Təvarixi al-Səlcuq" və "Hünərnamə" əsərlərinə əsasən oğuzların bayat, "Cami Ət-Təvarix" əsərinə görə kınık boylarının damğasıdır. Bir-birinə birləşən qoşa dairə (ꝏ) işarəsinin damğa adı "yuyan" (suluk), "qoşa göz"dür. Onun prototipi Pazırıq kurqanlarında müəyyən edilmişdir. Rum rəqəminə bənzər işarə Qərb mənbələrində "ikisütunlu epsilon" (yunan əlifbasında hərf) adlanır. İşarəyə təkcə Azərbaycanda deyil, Dərbənd və Xumara şəhərlərində, Türkiyənin maddi-mədəniyyət nümunələrində də rast gəlinir. Mahmud Kaşğarinin "Divani lüğət-it türk" əsərinə əsasən, oğuzların qayı boyunun damğasıdır. Uc hissələri xaricə çıxan buynuzşəkilli işarə "ikiağızlı balta", "baltavar", "qazan" kimi izah edilmişdir. "Təvarixi ali Səlcuq" əsərində oğuzların alkaevli boyunun damğası kimi göstərilir. Bulqarların, Krım tatarlarının, noqayların tayfa-nəsil rəmzlərində də təsadüf olunur. Mərkəzi Asiyada "toskur" (təknə) adlanır. Ucları içəri qatlanmış buynuzşəkilli işarə Şimali Qafqazda yaşayan qaraçayların "kosxar" (qoçqar, qoşqar), tülpar, semen nəsillərinin damğası kimi qeyd olunur. Qılıncabənzər işarənin damğa adı "qılınc"dır. Qoruyucu simvol xarakteri daşıyır. Göyçə qayaüstü yazılarında da bənzərləri var. "Şəcəreyi-Tərakimə" əsərində bu işarənin oğuzların yıva boyunun damğası olduğu bildirilir.

*Yeni arxeoloji abidələrin tədqiqi maddi və mənəvi mədəniyyətimizlə bağlı yeni faktların ortaya çıxmasına imkan verir. Aşkar olunmuş yeni qayaüstü təsvirlərdə insanların astral inamları ilə yanaşı, qədim türk mədəniyyətinə aid damğa elementlərinin tapılması Naxçıvan Muxtar Respublikasının prototürk mədəniyyətinin mərkəzlərindən biri olduğunu sübut edir.*

**Toğrul XƏLİLOV**
***AMEA Naxçıvan Bölməsinin şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent***

## Görkəmli bəstəkarın yaradıcılığına həsr olunmuş *konsert-lektoriya*

*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində görkəmli bəstəkar, Azərbaycan Respublikasının Xalq artisti Hacı Xanməmmədovun yaradıcılığına həsr olunmuş konsert-lektoriya keçirilib.*



Tədbirin aparıcısı bildirib ki, Hacı Xanməmmədov 60 ildən artıq yaradıcılığı dövründə musiqi sənətinin bir çox janrlarında parlaq əsərlər ərsəyə gətirib. Bəstəkarın tar ilə simfonik orkestr üçün 5 "Konsert"i, iki musiqili komediyası, xalq çalğı alətləri orkestri üçün "Simfoniyetta"sı, "Azərbaycan eskizləri", "Bayram", "Azərbaycan" süitaları musiqi xəzinəmizi zənginləşdirən böyük yaradıcılıq nümunələridir.

O, musiqi tariximizə həm də ilk dəfə olaraq kamança və orkestr üçün "Konsert" bəstələmiş bəstəkar kimi daxil olub.

Ötən əsrin 60-cı illərində görkəmli bəstəkar bir sıra musiqili komediyalara da yaddaqalan melodiyalar bəstələyib.

Hacı Xanməmmədov həm də gözəl mahnılar müəllifi kimi tanınıb. Onun 150-dən çox mahnısı görkəmli müğənnilərin ifasında səsləndirilib. Bir sıra görkəmli şairin şeirlərinə bəstələnən mahnılar bu gün də sevilə-sevilə oxunur. "Yaşa, könül", "Arzuya bax, sevgilim", "Güllü", "Ceyran", "Getmə, amandır" və başqa mahnılar bu gün müğənnilərin repertuarlarında olan ən məşhur mahnılardandır.

Sonra görkəmli bəstəkarın əsərlərindən ibarət konsert musiqisevərlərə təqdim edilib. Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyevin bədii rəhbər və dirijoru olduğu Naxçıvan Dövlət Filarmoniyasının xalq çalğı alətləri orkestri bəstəkarın mahnılarını və kamança üçün "Konsert"ini ifa edib. Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Elçin Nağıyevin, Azər Cəfərlinin ifa etdikləri "Qurban olduğum", "Yadıma düşdü" mahnılarında bəstəkarın qəlboxşayan zərif zövqlü musiqisi hiss olunurdu.

Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılovun, solistlərdən İsrafil Qibləliyevin, Qəribə Həsənovanın və Nərmin Hüseynlinin ifalarında səslənən "Aldatmayaq birbirimizi", "Gözünə qurban", "Yenə o bağ olaydı", "Yaşa, könül" mahnıları bəstəkarın yüksək zövq, musiqi duyumu ilə bərabər sözə tələbkarlığının göstəricisidir. Konsert görkəmli bəstəkarın kamança üçün orkestrdə ifa edilən "Konsert" əsəri ilə başa çatıb. "Konsert"in kamançada solo ifasını Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Aqib Seyidov səsləndirib.

Konsert musiqisevərlər tərəfindən maraqla qarşılanıb.

***"Əlincəqala" Tarix-Mədəniyyət Muzeyində muxtar respublikada fəaliyyət göstərən muzeylərin bələdçiləri üçün seminar-treninq keçirilib.***

## Muzey bələdçiləri üçün *seminar-treninq*



Seminar-treninqdə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Həsən Kərimov "Muzey bələdçisinin davranış qaydaları" haqqında çıxış edib.

Qeyd olunub ki, ötən ildən başlayaraq muzey bələdçilərinin muxtar respublikanın müxtəlif bölgələrində yerləşən muzeylərlə tanışlığı təmin edilir. Bu seminar-treninqlərin keçirilməsində əsas məqsəd ekskursiya işinin təşkili ilə bağlı mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması, muzey bələdçilərinin nəzəri və praktik səviyyəsinin yüksəldilməsidir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən yaradılan "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyi bu yaxınlarda istifadəyə verilib. Yeni yaradılan muzeyin ekspozisiyası zalında Əlincəqalada məskunlaşmış insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri diqqəti cəlb edir. Buraya gələn ölkə vətəndaşlarının və xarici turistlərin abidə və muzeylə tanışlığı üçün hər cür şərait yaradılıb.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin ekspozisiyasının zənginləşdirilməsi istiqamətində işlərini müntəzəm davam etdirəcəkdir. Eyni zamanda muzeylə ümumtəhsil məktəbləri arasında interaktiv dərslərin keçilməsi, tələbələrin Əlincəqalaya ekskursiyasının təşkili də diqqət mərkəzindədir. Nazirlik tərəfindən Azərbaycan və ingilis dillərində "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin internet saytının yaradılması üçün işlər görülür.

Qeyd olunub ki, görülən işlər muzey işçiləri qarşısında da mühüm vəzifələr qoyur. Muzeylərimizin hazırlıqlı, bilikli, xarici dilləri bilən bələdçilərlə təmin edilməsi vacib məsələlərdəndir. Muzeyə gələn insanları qarşılayan və onlara bu məkan haqqında məlumat verən bələdçilərdir. Muzey bələdçilərinin verilən suallara ətraflı cavab verməsi, etik qaydalara əməl etməsi muzeyə gələnlərdə xoş təəssürat yaratmalıdır.

Bildirilib ki, muzey bələdçiləri müxtəlif səviyyəli insanlarla, məktəbli və tələbələrlə, yaşlı nəsillə işləməyi bacarmalıdır. Muzey bələdçisi hər bir ziyarətçiyə qarşı diqqətli və nəzakətli olmalı, onların suallarını diqqətlə dinləyib elmi əsaslarla cavablandırmağı bacarmalıdır.

Sonda "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin ekspozisiyasına baxış olub və ekskursiyanın müzakirəsi keçirilib. Seminar-treninqdə muzey bələdçilərinin davranış qaydalarına dair metodik tövsiyələr verilib.

**Əli RZAYEV**

## Müasir bankomatların faydalı funksiyaları

***İqtisadiyyatın inkişafı, insanların tələbatlarının artması pul mübadilələri zamanı hesablaşmaların sürətli və şəffaf şəkildə aparılmasını da zəruri edir. Müasir dövrümüzdə insanların qarşılıqlı iştirakı olmadan həyata keçirilən nağdsız hesablaşmalar bu baxımdan bank sistemindəki mühüm yeniliklərdən sayılır.***

Hazırda dünya üzrə hesablaşmaların nağdsız formalarından geniş istifadə olunur. Statistikaya görə, beynəlxalq nağdsız hesablaşmaların ümumi hesablaşmalardakı payı orta hesabla 80 faizdir. Əhalinin fərdlər şəklində nağdsız hesablaşmalara meylinə nəzər yetirdikdə isə bu göstəricilərin, əsasən, inkişaf etmiş ölkələrdə daha yüksək, 80-90 faiz arasında olduğunu görürük. Bütün bunlar isə, təbii ki, insanların rahatlığının təmin olunması üçün görülən işlərin nəticəsində mümkün olub.

Müasir ödəniş avadanlıqları sırasında əhali tərəfindən ən çox bilinən və müraciət ediləni məhz bankomatlardır. Bankomatlar və ya beynəlxalq dildə ATM adlandırılan maşınlar bank əməliyyatlarının bir qisminin banka müraciət etmədən həyata keçirilməsinə imkan verir. Tarixdə ilk bankomatlar 1950-1960-cı illərdə istifadəyə verilib. Banklarda artan müştəri müraciətlərinin və müəssisələrin banklarla əlaqələrinin sıxlaşdığı bir dövrdə bank daxilində növbələrin azaldılması, bank hesabları ilə əlaqədar sadə əməliyyatlar aparmaq istəyən müştəri kütləsinə bank şöbələrindən kənarda xidmət göstərilməsi, iş yükünün filiallar üzərində cəmləşməsinin qarşısının alınması məqsədilə tətbiq olunmağa başlayan bu aparatlar ötən dövr ərzində xeyli inkişaf mərhələləri keçib. Xüsusən tətil və qeyri-iş günlərində, həftə sonlarında pul vəsaitlərinə çıxış imkanının əldə edilməsi cəmiyyətdə istehlak vərdişlərinin də yenidən formalaşmasına gətirib çıxarır.

Hazırda vahid şəbəkə üzrə real vaxt rejimində bizə xidmət edən bankomatların yaradılması ötən əsrin 90-cı illərinə təsadüf edir. Bankomatların onlayn rejimdə fəaliyyətə başlaması ilə avadanlıqların funksiyaları daha da təkmilləşdirilib, nağd pulun çıxarılması ilə yanaşı, pul qəbuletmə xüsusiyyətinə də malik bankomatlarda müvafiq hesablara vəsaitlərin daxil olunması, kredit ödənişləri, depozitlərin yerləşdirilməsi və müxtəlif qeyri-nağd əməliyyatların aparılması mümkün hala gəlib.

Qeyd edək ki, ölkəmizdə ilk bankomat 1997-ci ildə Bakı şəhərində, Azərbaycan Beynəlxalq Bankının baş ofisində quraşdırılaraq əhalinin istifadəsinə verilib. Naxçıvan Muxtar Respublikasında isə bankomatlardan istifadə olunması 2003-cü ildən başlanır. Həmin tarixdən muxtar respublikada bankomatlara olan tələb daha da artmaqdadır. Bu gün muxtar respublikamızda 56-sı Naxçıvan şəhərində, 43-ü rayon və kənd mərkəzlərində olmaqla, cəmi 99 ədəd bankomat vardır. Bu bankomatlar əhalinin tələbini dolğun formada ödəyəcək şəkildə şəhər, rayon və kəndlərdə əhali sayına və kart infrastrukturuna müvafiq paylanılıb. Hazırda muxtar respublikamızda gün ərzində orta hesabla 6273 dəfə müraciət olunan bankomatlar günün 24 saatı əhalinin xidmətindədir. Belə ki, bu gün orta hesabla muxtar respublikada ay ərzində bankomatlarda 200 minə yaxın əməliyyat aparılır. Edilən müraciətlərə və aparılan əməliyyatların həcminə baxdıqda bankomatların əhəmiyyəti burada bir daha özünü göstərir. Belə ki, əgər bu qədər əməliyyat yükü muxtar respublikada fəaliyyət göstərən bank və bank filiallarının üzərinə düşsəydi, bu zaman nə qədər çatışmazlıq və vaxt itkisi yaranacağını düşünmək çətin deyil.



Hazırda muxtar respublikada, ümumilikdə, 230 mindən artıq ödəniş kartı mövcuddur. Bu, orta hesabla əhalinin hər iki nəfərindən birində ödəniş kartı deməkdir. İndi dövlət sektorunda çalışan bütün işçilərin əməkhaqları ödəniş kartları vasitəsilə ödənilir. Şəxsi hesabların, debet və kredit kartlarının əldə olunması üçün real şərait mövcuddur. Özəl sektorda işçilərin əməkhaqlarının kartlarla ödənilməsi işi isə davam etdirilməkdədir. Belə bir şəraitdə, demək olar ki, işəgötürənlər və işçilər arasındakı hesablaşmaların böyük qismi nağdsız şəkildə aparılır. Lakin statistikaya əsasən, əhalinin vəsaitlərinin nağdlaşdırılmasına olan tələbi də kifayət qədər böyükdür. Bu da nağd pulun idarəolunması, saxlanması və daşınması baxımından həm bank, həm müəssisələr, həm də vətəndaşlar üçün müəyyən çətinliklər yaradır. Belə ki, bu gün muxtar respublikada bankomatlara edilən hər 100 müraciətin 98-i vəsaitlərin nağdlaşdırılması üçün edilir. Halbuki hazırda muxtar respublikamızda ən müasir ödəniş avadanlıqlarının quraşdırılması, daim yenilənən ödəniş alətlərinin regionda tətbiqi və mövcud strukturun təkmilləşdirilməsi işləri mütəmadi şəkildə aparılır, dünyada tətbiq olunan ən yeni texnologiyaların, çoxfunksiyalı ödəniş terminallarının, təmassız ödənişləri mümkün edən POS-terminal və bankomatların istifadəsinə imkanlar yaradılır.

Nağdsız ödənişlər üzrə digər ödəniş alətləri ilə yanaşı, bankomatların bu sahədə geniş funksiyaları vardır. Belə ki, bu funksiyalar sayəsində həm vaxta qənaət etmək, həm də bankların gün ərzində müəyyən edilmiş saatlarda limitlənmiş xidmətlərindən istənilən vaxt yararlanma imkanı qazanmaq mümkündür. Məsələn, ölkə ərazisində yaşayan bir şəxsə vəsait göndərmək üçün ya ən yaxın bank filialına müraciət etmək, ya da tanış şəxs taparaq onun vasitəsilə pulun ünvana çatdırılması çoxumuz üçün xeyli vaxt tələb edən, yorucu bir prosesdir. Lakin bankomatlar vasitəsilə heç bir sənəd tələb olunmadan, istənilən gün və saatda, sadəcə, ödəniş kartını istifadə edərək bu əməliyyatları bir neçə dəqiqədə həyata keçirmək olar. Ən əsası da bu əməliyyat zamanı vəsaiti alan qarşı tərəfin hər hansı bir ödəniş kartına sahib olması da şərt deyil. Bunun üçün müvafiq addımları izləyərək göndərilən vəsait kartsız şəkildə də əldə oluna bilər. Bundan əlavə, kartdan digər bir şəxsin kart hesabına pul göndərilməsi, mobil rabitə xidmətlərinin dəyərinin ödənilməsi kimi hesablaşmaların da bankomatlar vasitəsilə həyata keçirilməsi mümkündür. Adıçəkilən xidmətlərin həyata keçirilməsi üçün nağd vəsait qəbuletmə funksiyasına malik bankomatlarda vətəndaşlara məxsus ödəniş kartı olmadan da bu xidmətlərdən yararlanma imkanı vardır. Bununla yanaşı, hazırda muxtar respublikamızda fəaliyyət göstərən kommunal xidmət müəssisələrinin və rabitə operatorlarının ödənişlərinin "Hökumət Ödəniş Portalı"na inteqrasiyası işləri davam etdirilir ki, bu da yaxın zamanda bu və bunun kimi bir çox ödənişlərin də bankomatlar vasitəsilə ödənilməsini mümkün edəcəkdir.

Bankomatlarda ödənişlərlə yanaşı, banka müraciət etmədən hesaba nəzarət edilməsi və təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi funksiyası da vardır. Hesabdakı qalıq vəsaiti bilmək üçün balansın yoxlanılması və çap edilməsi, tələb edilən müddətlər üzrə hesabdan çıxarış qəbzlərinin əldə olunması bütün bankomatlarda təqdim olunan xidmətlər sırasındadır. Onu da qeyd etmək vacibdir ki, bu xidmətlərdən istifadə zamanı heç bir əlavə ödəniş tələb olunmur. Kartla əlaqədar bütün əməliyyatlarda istifadə olunan və kart sahibinə qapalı zərfdə təqdim edilən, bəzən də yadda saxlanılmasında çətinliklər yaranan məxfi PIN kodların dəyişdirilməsi də kiçik bir ödənişlə bankomatlar vasitəsilə həyata keçirilir. Hazırda banklar tərəfindən "SMS xəbərdarlıq", "Mobil Banking" və "İnternet Banking" xidmətləri də tətbiq olunur ki, bunların da aktivləşdirilməsi birbaşa bankomatlar vasitəsilə həyata keçirilə bilir.

*Gəlin, müasir bankomatlara yalnız nağd pul maşınları kimi yanaşmayaq. Bir sıra gündəlik pul və ödəniş işlərimizin asanlaşdırılmasında etibarlı vasitələr olan bankomatlar qeyri-nağd hesablaşma vərdişlərinə də yiyələnməyimiz üçün geniş funksiyalarla xidmətimizdədir.*

**Hafiz İSMAYILBƏYLİ**
*Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin*
*İqtisadi təhlil və statistika şöbəsinin mütəxəssisi*

## Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları məhv edilib

Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarının məhvetmə komissiyası tərəfindən Naxçıvan Şəhər Məhkəməsinin 2 may 2016-cı il tarixli qərarı, Kəngərli Rayon Məhkəməsinin 11 fevral 2016-cı il tarixli hökmü, Culfa Rayon Məhkəməsinin 3 may 2016-cı il tarixli hökmü əsasında məhv edilməsi nəzərdə tutulmuş, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində ayrıca bağlamalarda saxlanılan narkotik vasitələrə, psixotrop maddələrə və onların prekursorlarına baxış keçirilib. Baxış zamanı çəkisi 0,08 qram və 1,90 qram olan heroin, 33,11 qram olan tiryək, 85,833 qram marixuana naturada üzləşdirilib. Bağlamaların açılmadığı və möhürün yerində olduğu müəyyən edildikdən sonra Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin tibbi tullantıların ləğvi sistemində yandırılaraq məhv edilib.

Bundan başqa, qanunsuz əldə edilmiş müxtəlif dərman preparatları, psixotrop maddələr də yandırılıb.

**Xəbərlər şöbəsi**

***Bu yazını hazırlayarkən Ordubadda tarixi abidələr kimi bu gün də qorunan və istifadə edilən kəhrizlər barədə bir neçə mənbəyə müraciət etməli oldum. Mənbələrə görə, belə hidroqurğuların yaşı minilliklərlə ölçülür. Digər su mənbələrindən bir sıra üstün və fərqli cəhətlərə malik olan kəhrizlər qrunt sularını toplayıb yer səthinə çıxarmaq üçün ən qədim yeraltı su mənbələridir.***

## Ordubad kəhrizləri

### *Onları qorumaq hər birimizin borcudur*



Bu sahədə geniş tədqiqatlar aparmış kənd təsərrüfatı elmləri doktoru Əlövsət Quliyev yazır ki, həm də "qırxpillə" və ya "qırxayaq" adlanan Ordubad kəhrizləri dərinliklərindən asılı olaraq müxtəlifdirlər. Yəni "40" rəqəmi burada şərtidir. Pillələrin sayı bəzən az da ola bilər. Həmin qırxpillələrdə yer səthindən suya qədər olan məsafə səkkiz metr, bəzən daha çox olur. Qırxpillələrin özünəməxsus inşa sistemi var. Belə ki, pillələrin düzülüşü yerləşdiyi ərazinin şəraitinə və kəhrizlərin dərinliyinə görə birbaşa enən və ya döngəli, yəni 10-15 pillədən bir istiqamətini dəyişərək dolanan pillələrdir. Bu cür kəhrizlərdə həmişə 8-10 dərəcə arasında sabit istilik olur. İlin fəsillərindən asılı olmayaraq, qırxpillələrin yan divarlarında düzəldilmiş oyuqlara qoyulan müxtəlif növ ərzaqlar heç zaman xarab olmur.

Maili lağım şəbəkəsindən ibarət olan kəhrizlər peşəkar kankanlar tərəfindən qazılır və həmin lağımlar bir-biri ilə şaquli quyular vasitəsilə birləşdirilir. Kəhrizlər qazılarkən əvvəlcə baş quyu (buna güman quyusu da deyilir), daha sonra isə digər quyular qazılır.

Kəhrizlərin qazılmış lağımları daşla və ya bişmiş kərpiclə tağvarı hörülür. Bu su sistemləri min illər boyu məişət və təsərrüfatda istifadə edilib, qədim zamanlarda dəyirmanların işlədilməsində də böyük əhəmiyyət daşıyıb. Bundan əlavə, yay ayları zamanı müxtəlif meyvələri, ət-süd məhsullarını saxlamaq üçün kəhrizlərdən soyuducu kimi də istifadə olunub.

Ordubad şəhərində kəhrizlərdən hələ də istifadə edilir. Əksər həyətlərdə kəhrizlər çoxpilləlidir. Bişmiş kərpicdən inşa olunan qırxpillələr kəhriz sistemləri üzərində yeraltı abidə sayılır.

Ordubad şəhər sakini, el ağsaqqalı Hacı Mirəşrəf deyir ki, bu gün Ordubadda 35 belə su mənbəyindən istifadə edilir. Haşiyə çıxaraq onu deyim ki, vaxtilə şəhərə Əngəs dağından 100 qolla su vurulub. "Sərşəhər" adlanan məhəllədən bu sular müxtəlif istiqamətlərə yönəldilib. Həmin məhəllədə elə o adla tanınan məsciddə su iki qola ayrılıb. Maraqlı orasıdır ki, məhəllənin mürəkkəb relyefi var. Belə ki, şəhərin müxtəlif məhəllələri hündürdə, bəzi məhəllələr orta hündürlükdə yerləşir. Lakin bu, suyun normal hərəkətinə təsir edə bilmir. Ona görə ki, həmin ünvana gələn su güclü təzyiqə malikdir. Ümumilikdə isə bu qənaət bütün şəhər üçün xarakterikdir.

Qayıdaq kəhrizlərə. Şəhərin Əkbər Ağayev küçəsindəki qırxpilləli kəhrizin nə vaxt inşa edildiyini dəqiq bilmirlər. Çoxları deyir ki, gözümüzü açıb belə görmüşük. Pillələrin sayı çox olsa da, ən işlək kəhrizdir. Bəziləri zarafatla deyir ki, bu kəhrizə enəndə idman edirsən. Havası da suyu kimi təmizdir.

Şəhərin Qafar Babayev küçəsində "Hacı Yusif çeşməsi" adlanan kəhriz 35 pillədən ibarətdir. Şəxsi həyətdədir. 1750-ci ildə tikilib. Hacı Yusifin bu gün adını daşıdığı nəvə Hacı Yusif deyir ki, bütün məhəllənin üzünə açıq olan bu kəhriz suyunun təmiz və sərinliyi ilə hamını heyran qoyur.

Elə digər quyuların suyu da Ordubada gələnlərə ecazkar bir təsir bağışlayır. Məlumat üçün bildirək ki, Ordubad həm də məscidləri ilə tanınır. Maraqlı cəhət orasıdır ki, hər bir məscidin həyətində kəhriz vardır.

Ordubadda digər belə kəhrizlərin yerləşdikləri ünvanlarda da olduq. Demək olar ki, bu su mənbələrinə şəhər əhalisi qiymətli bir abidə kimi münasibət göstərir. Həmsöhbət olduğumuz el ağsaqqalı, təqaüddə olan müəllim Südeyf Hacıyev bildirdi ki, bu kəhrizlər elmin, texnikanın inkişaf etmədiyi bir dövrdə ata-babalarımız tərəfindən inşa edilərək sonrakı nəsillərə ərməğan olunub. Deməli, onlar bizə ulularımızın miras qoyduqları sərvətdir, yüz illərdir ki, kəhrizlərdən istifadə edirik və tələbatımızı tamamilə ödəyir. Ona görə biz də onları gələcək nəsillərə eləcə təhvil verməliyik.

Təəssüf ki... Ona təəssüflənirik ki, hələ də içimizdə yaşayan biganəlik bu qiymətli su mənbələrinin bəzilərinə təsirsiz ötüşməyib. Məsələn, şəhərin böyük məscidlərindən biri olan Mingis məscidinin həyətində quyu var və bu quyudan müxtəlif istiqamətlərə yeraltı su yolları işlənilib. Onlardan biri el arasında "Şahi" və ya "Sayi" adlandırılan çeşmədir. Bu su mənbəyi də şəxsi həyətdə yerləşir. Həmin həyətin sahibi Ordubaddan köçdüyündən çeşmə baxımsız hala düşüb. Öz tarixi-memarlıq abidələrinə böyük mühafizəkarlıqla yanaşan rayonda gördüyümüz bu mənzərə bizi çox təəccübləndirdi.

Güman edirik ki, həmin hidroqurğunun təmiri üçün qolunu çırmayanlar tapılacaq. Bu gün də çağlayan həmin kəhrizdən istifadə olunacaq. Bir də onu düşünürük ki, bu məsələ qəzet səhifəsinə çıxmaya bilərdi. Ona görə ki, muxtar respublikamızda Kəhrizlər İdarəsi var və həmin qurum kəhrizlərin təmir və bərpasına cavabdeh idarədir...

**Muxtar MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 502